

Doğma, canım-varlığım qədər sevdiyim Azərbaycanım mənim qibləgahımdır

# ŞƏRQ qapısı

Qəzet 1921-ci ildən çıxır

Təsisçi: *Naxçıvan Muxtar Respublikası Ali Məclisi və Nazirlər Kabineti*

Sayı: 229 (23.871)

*9 dekabr 2021-ci il, cümə axşamı*

*Gündəlik ictimai-siyasi qəzet*

www.serqqapisi.az

Qiyməti 20 qəpik


## Naxçıvan Şəhər Qeydiyyat Şöbəsi və 3 saylı Notariat Ofisi üçün müasir iş şəraiti yaradılıb





Muxtar respublikada vətəndaşlara göstərilən hüquqi xidmətlərin keyfiyyətinin yüksəldilməsi diqqətdə saxlanılır. Həyata keçirilən islahatlar ədliyyə sistemi və onun maddi-texniki bazasının gücləndirilməsinə səbəb olmuşdur.

Dekabrın 8-də Naxçıvan Şəhər Qeydiyyat Şöbəsi və 3 saylı Notariat Ofisinin yeni inzibati binası istifadəyə verilmişdir.

Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri Vasif Talıbov bu münasibətlə keçirilən tədbirdə iştirak etmişdir.

Naxçıvan Muxtar Respublikasının Ədliyyə naziri, 3-cü dərəcəli dövlət ədliyyə müşaviri Daşqın Rəhimov çıxış edərək demişdir ki, muxtar respublikanın ədliyyə orqanlarında innovativ yeniliklərin tətbiqinə xüsusi diqqət yetirilir, müasir infrastrukturun yaradılması üzrə ardıcıl tədbirlər həyata keçirilir, vətəndaşlıq vəziyyəti aktlarının dövlət qeydiyyatını həyata keçirən orqanların fəaliyyəti təkmilləşdirilir. Qeydiyyat şöbələrinin "Vətəndaşlıq Vəziyyəti Aktları"nın avtomatlaşdırılmış qeydiyyat informasiya sisteminə qoşulması, həmçinin yeni nəsil şəxsiyyət vəsiqələrinin verilməsi ilə bağlı şəxslərin fərdi identifikasiya nömrəsi ilə təmin edilməsi bu sahədə atılan uğurlu addımlardandır. Vətəndaşlara göstərilən xidmətlərin tələbatı və əhəmiyyəti nəzərə alınaraq qeydiyyat şöbələri ilə yanaşı, notariat fəaliyyətinin də daha səmərəli təşkili üçün yeni imkanlar yaradılır, müasir informasiya-kommunikasiya vasitələrindən istifadə edilməklə vətəndaşlara keyfiyyətli hüquqi yardım göstərilir. Muxtar respublikada notariat orqanları "Elektron notariat" informasiya sisteminə qoşulmaqla vətəndaşlara daha çevik və keyfiyyətli xidmətlərin göstərilməsini həyata keçirirlər. Naxçıvan Şəhər Qeydiyyat Şöbəsi və 3 saylı Notariat Ofisinin inzibati binasının istifadəyə verilməsi də görülən işlərin davamıdır. Daşqın Rəhimov muxtar respublikada ədliyyə orqanlarının fəaliyyəti üçün yaradılan hərtərəfli şəraitə görə kollektiv adından minnətdarlıq etmişdir.

Naxçıvan Şəhər Qeydiyyat Şöbəsinin rəisi, ədliyyə müşaviri İsayə Gülməmmədova demişdir ki, muxtar respublikada əhali rifahının yaxşılaşdırılması istiqamətində işlər uğurla həyata keçirilir. Bu gün hər cür şəraitlə təmin



olunmuş binanın istifadəyə verilməsi də buna nümunədir. Çalışacağıq ki, bundan sonra da göstərilən etimadı doğruldaq.

Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri Vasif Talıbov tədbirdə çıxış edərək demişdir: Ölkəmizdə qeydiyyat şöbələrinin fəaliyyəti Azərbaycan Respublikası Ailə Məcəlləsinə və Vətəndaşlıq Vəziyyəti Aktlarının Dövlət Qeydiyyatı Qaydasına əsasən tənzimlənir. Nikahın, nikahın pozulmasının, doğumun, övladlığa götürmənin və ölümün qeydə alınması, ad, ata adı və soyadın dəyişdirilməsinin qeydə alınması, eyni zamanda verilmiş Vətəndaşlıq Vəziyyəti Aktlarının təkrar verilməsi qeydiyyat şöbələrinin əsas vəzifələridir. Muxtar respublikada 8 Qeydiyyat Şöbəsi, 1 Nikah evi, 11 Notariat Ofisi fəaliyyət göstərir. Bunlar vətəndaşlarla sıx işləyən qurumlardır. Ona görə də fəaliyyət üçün lazımi şərait yaradılmalı idi. Vaxtilə Naxçıvan şəhərində 1 Qeydiyyat Şöbəsi vardı. Naxçıvan şəhərinin inzibati ərazisində aparılmış dəyişikliklərə uyğun olaraq, eləcə də əhali artımı nəzərə alınaraq ikinci Qeydiyyat Şöbəsinin yaradılmasına ehtiyac yaranmışdı. Yaradılan ikinci Qeydiyyat Şöbəsi bu gündən müasir tələblərə cavab verən binada fəaliyyətini davam etdirəcəkdir.

Ali Məclisin Sədri demişdir: Vətəndaşlıq Vəziyyəti Aktlarının qeydə alınması işi vacib məsələdir. Ona görə də bu sahədə arxiv işinə ciddi diqqət yetirilməlidir. Qeydiyyat şöbələrinin vəzifələrinə uyğun olaraq həm kağız, həm də elektron qaydada arxivlər yaradılmalı, muxtar respublikanın vahid qeydiyyat sisteminə qoşulmalıdır. Bununla yanaşı, verilən hər bir sənədin qeydiyyatı aparılmalı, nizam-intizama əməl olunmalıdır. Yaradılan şərait işçilərin iş şəraitini yaxşılaşdırmaqla bərabər, müraciət edənlərin də lazımi şəraitdə qəbul olunmasına imkan verəcəkdir. Vətəndaşların müraciətləri dəqiq araşdırılmalı, mübahisəli məsələlər qanun əsasında izah olunmalı, əsassız mübahisə və şikayətlərə şərait yaradılmamalıdır.

Qeyd olunmuşdur ki, binada nikahların təntənəli və yaddaqalan keçirilməsi üçün hərtərəfli şərait yaradılıb. Bu da dövlətimizin gənclərə göstərdiyi növbəti qayğıdır. Ədliyyə Nazirliyi bu sahədə işləri davam etdirməli, muxtar respublikanın rayonlarında da Nikah evlərinin yaradılması barədə təkliflər verməlidir.

Ali Məclisin Sədri kollektivi təbrik etmiş, fəaliyyətlərində uğurlar arzulamışdır.

Məlumat verilmişdir ki, 3 mərtəbədən ibarət olan binada 8 inzibati və 7 yardımçı otaq, eləcə də nikah qeydiyyatı zalı və mətbəx yerləşir. Bina notariat hərəkətlərinin və vətəndaşlıq vəziyyəti aktlarının dövlət qeydiyyatının aparılması üçün bütün lazımi avadanlıqlarla təmin olunmuşdur. Dəhlizdə yeni nəsil şəxsiyyət vəsiqələrinin oxunması üçün köşk qoyulmuşdur.

Yeni nəsil şəxsiyyət vəsiqəsinin oxunması əyani şəkildə göstərilmişdir.

Zirzəmidə qazanxana, anbar, 2 arxiv və texniki otaqlar vardır. Binanın ətrafında abadlıq və yaşıllaşdırma işləri görülmüş, dayanacaq yaradılmışdır.

**Naxçıvan Muxtar Respublikası Ali Məclisinin mətbuat xidməti**

## Müsabiqələrin mütəşəkkil keçirilməsi davam edib

*Dövlət orqanlarının peşəkar kadrlarla komplektləşdirilməsi, dövlət qulluğuna dair qanunvericiliyin tətbiqinə nəzarət, yeni imtahanların keçirilməsi və hamiliklə bağlı tədbirlərin davam etdirilməsi noyabr ayı ərzində də Dövlət İmtahan Mərkəzinin əsas fəaliyyət istiqaməti olub.*

2-12 noyabr tarixlərdə dövlət orqanlarında vakant dövlət qulluğu vəzifələrinin tutulması üçün elan olunmuş növbəti müsabiqənin test mərhələsi keçirilib. Müsabiqəyə çıxarılmış 169 vakant vəzifənin tutulması üçün 696 müraciət qeydə alınıb. Test imtahanının nəticələrinə əsasən 606 namizəd imtahanlarda iştirak edib, 267 namizəd isə müvafiq keçid balını toplayaraq müsahibə mərhələsində iştirak etmək hüququ qazanıb.

Noyabrın 12-də ilk dəfə olaraq muxtar respublikada fəaliyyət göstərən dövlət teleradio və mətbuat orqanlarında işə qəbul üçün esse imtahanı keçirilib. İmtahanda iştirakçılara müstəqil mühakimə yürütmək və əsaslandırmaq bacarığını nümayiş etdirməyə imkan verən "Naxçıvan müstəqillik və dövlətçilik tarixində" mövzusu təqdim edilib. Dövlət teleradio və mətbuat orqanlarında vakant vəzifələrin tutulması üçün ilk dəfə keçirilən müsabiqədə iştirak etmək üçün 10, mətbuat və ictimaiyyətlə əlaqələr üzrə vakant vəzifələrin tutulması üçün esse mərhələsində iştirak etmək üçün 4 namizəd sənəd təqdim edib. Onlardan mətbuat orqanları üzrə 9, baş məsləhətçi vəzifələri üzrə isə 4 namizəd imtahanda iştirak edib, müvafiq olaraq namizədlərdən 5-i və 2-si keçid balını toplayaraq müsahibə mərhələsində iştirak etmək hüququ qazanıb. Müsahibə mərhələsinə sənəd qəbulu dekabrın 15-nə qədər davam edəcək.

Noyabrın 15-də Dövlət İmtahan Mərkəzinin təşkilatçılığı ilə "Naxçıvan" Universitetində "Karyera günü" keçirilib. 50-yə yaxın tələbənin iştirakı ilə keçirilən "Karyera günü"ndə slayd vasitəsilə "Naxçıvan Muxtar Respublikasında vətəndaşların dövlət orqanlarına və digər müəssisələrə işə qəbulu qaydaları" haqqında tələbə-gənclərə ətraflı məlumat verilib. Dövlət qulluğuna, dövlət qulluğunun xüsusi növlərinə, eləcə də dövlət müəssisə və təşkilatlarına işə qəbul, imtahan prosesinin təşkili və keçirilməsi qaydaları, imtahanların məzmunu, sual sayları və keçid balları ilə tanışlıq tələbə-gənclərin marağına səbəb olub, onları maraqlandıran suallar cavablandırılıb. Tədbirin sonunda tələbələrə Dövlət İmtahan Mərkəzinin fəaliyyəti, imtahanların keçirilməsi qaydaları və digər məlumatları özündə əks etdirən bukletlər paylanılıb.

22-30 noyabr tarixlərdə muxtar respublikanın dövlət ümumi təhsil müəssisələrində vakant vəzifələrə – psixoloq, laborant, kitabxana müdiri, kitabxanaçı, tərbiyəçi və uşaq birliyi təşkilatının rəhbəri vəzifələrinə işə qəbul üçün elan edilmiş müsabiqənin test imtahanları keçirilib. Müsabiqəyə müraciət etmiş 227 namizəd 89 vakant vəzifənin tutulması üçün biliklərini yoxlayıb.

Noyabr ayı ərzində hamiliklə bağlı tədbirlər də diqqətdə saxlanılıb. İxtisasların müvafiq təşkilatlara hamiliyə verilməsi məzunların gələcək karyera inkişafında xüsusi rol oynayır. Buna uyğun olaraq noyabrın 24-də Dövlət İmtahan Mərkəzinin əməkdaşları Naxçıvan Dövlət Universitetinin mərkəzə yeni hamiliyə verilmiş Dövlət və ictimai münasibətlər ixtisasında təhsil alan tələbələrlə görüşüb. Onlara "Dövlət qulluğu və dövlət qulluqçusu" və "Azərbaycanda dövlət qulluğunun təşəkkülü və əsas tarixi mərhələləri" mövzularında hazırlanmış slaydlar vasitəsilə seminar keçirilib.

Noyabr ayında Dövlət İmtahan Mərkəzi tərəfindən təşkil olunmuş müəllimlərin sertifikasiya imtahanları üçün hazırlıq kurslarında 317, dövlət qulluğu imtahanlarının müsahibə mərhələsi üçün hazırlıq kursunda 54, müəllimlərin sertifikasiyası üçün keçirilən sınaq imtahanlarında isə 639 nəfər iştirak edib.

***Naxçıvan Muxtar Respublikası Dövlət İmtahan Mərkəzinin mətbuat xidməti***

# Fransis Qardener-Trexo: "Böyük Britaniya ilə Azərbaycanın Naxçıvan Muxtar Respublikası arasında daha uzunmüddətli və güclü münasibətlərin qurulacağına inanıram"

Dekabrın 7-8-də Britaniya Şurasının Azərbaycan Respublikası üzrə direktoru Fransis Qardener-Trexo Naxçıvan Muxtar Respublikasında səfərdə olub. Səfər çərçivəsində qonaq muxtar respublikanın Təhsil Nazirliyində və ali təhsil ocaqlarında bir sıra rəsmi görüşlər keçirib. Britaniya Şurasının Azərbaycan Respublikası üzrə direktoru, həmçinin "Naxçıvan" Universiteti tərəfindən keçirilən "Beynəlxalq həftə" layihəsi çərçivəsində Böyük Britaniya günündə iştirak edib, muxtar respublikanın tarixi-mədəni abidələri ilə tanış olub. Fransis Qardener-Trexo muxtar respublikaya səfərinin məqsədi, burada keçirdiyi görüşlərin nəticələri barədə fikirlərini "Şərq qapısı" qəzeti ilə bölüşüb:

– Naxçıvana səfərimin məqsədi burada fəaliyyət göstərən universitetlərdə görüşlər keçirib, təhsil sahəsi üzrə perspektiv imkanları, gələcək layihələri müzakirə etmək idi. İlk görüşümüz Naxçıvan Muxtar Respublikasının təhsil naziri ilə oldu, məktəblərdə ingilis dilinin, bu fənni tədris edən müəllimlərin bilik səviyyəsini müzakirə etdik, reallaşdırılacaq layihələrin icra vəziyyəti barədə fikir mübadiləsi apardıq. Bildiyimiz kimi, British Councilin ölkədəki əsas missiyalarından biri ingilis dilinin inkişafı və təbliğidir. Bu sahədə biz muxtar respublikanın Təhsil Nazirliyi ilə gələcəkdə hansı işlər görə biləcəyimizi də müəyyənləşdirdik. British Council olaraq biz ingilis dili tədrisinin aparılmasında daha çox onlayn vasitələrdən istifadəni təbliğ edirik və bunu müzakirələrimizdə də bildirdik. Çünki bu üsul müəllimlərin, şagirdlərin ingilis dili materiallarına əlçatanlığını daha çox asanlaşdırır. Gələcəkdə bu istiqamətdə birgə iş görməyi planlaşdırırıq. Səfər çərçivəsində, həmçinin Naxçıvan Dövlət və "Naxçıvan" universitetlərində görüşlər keçirdik. Bu görüşlərin əsas məqsədi buradakı universitetlərin ingilis dili sahəsində beynəlxalq, o cümlədən də İngiltərədəki universitetlərlə əlaqələrinin yaradılması sahəsində hansı planların olduğunu müəyyənləşdirmək və Britaniya Şurasının bu işə necə dəstək ola biləcəyi ilə bağlı ümumi fikrə gəlmək idi. "Naxçıvan" Universitetində keçirilən "Beynəlxalq həftə" layihəsi çərçivəsində təşkil edilən Britaniya günündə iştirak etdim, tədbirin bədii hissəsində istedadlı tələbələrin çıxışları, ifa etdikləri şeir və mahnıları, səhnəciyi maraqla izlədim.



"İngiltərənin təhsil sektoru dünyadakı aparıcı ölkələrin sıralamasında ilk yerləri tutur, beynəlxalq universitetlər arasında ilk 20-yə düşən universitetlərimiz vardır. Bu mənada, məqsədimiz odur ki, Naxçıvandakı universitetlərlə İngiltərədəkilər arasında beynəlxalq əlaqə yaradıb, həm tələbə mübadiləsi proqramı və həm də digər istiqamətlər üzrə hər iki tərəfə böyük töhfələr verək", – deyən Fransis Qardener-Trexo fikirlərinə aydınlıq gətirib: – Tələbə mübadiləsi proqramı haqqında danışdığımız zaman, xüsusilə İELTS imtahanının önəmini vurğulamaq lazımdır. Çünki tələbə xaricdə təhsil almaq üçün İELTS sertifikatını əldə etməlidir. Bildiyimiz kimi, British Council bu sahədə əsas imtahan mərkəzidir və tələbələri çoxlu sayda ödənişsiz materiallarla təmin edir. Həmin materiallar təşkilatın veb-saytında yerləşdirilib. Bu sahədə də universitetlərlə müzakirələr apardıq və düşünürəm ki, görüşlərimiz faydalı oldu. Bundan başqa, British Councilin artıq illərdir, davam edən "Creative Spark" layihəsi vardır ki, bu layihə çərçivəsində universitetlər arasında əlaqələr yaradılır. Deyim ki, İngiltərə universitetlərindən məzun olmuş azərbaycanlı tələbələr də bu layihəyə öz töhfələrini verirlər. Həmin tələbələrin startap layihələrinə fəal qoşulmalarını, innovativ yeniliklərə imza atmağa çalışmalarını görürük. Bütün bu üstün cəhətləri nəzərə alaraq iki ölkənin tələbələri arasında daha sıx əlaqələr formalaşdırmağı qarşıya məqsəd qoymuşuq.

Fransis Qardener-Trexo Naxçıvanda ilk dəfə olduğunu qeyd edərək muxtar respublika ilə bağlı ümumi təəssüratlarını da bölüşdü: – Mən Naxçıvan Muxtar Respublikasına səfəri çoxdandır, səbirsizliklə gözləyirdim və çox şadam ki, gələ bildim. Burada olduğum müddətdə bir sıra tarixi-mədəni yerləri gəzdim, keçirdiyimiz görüşlərdə çox xoş, mehriban münasibətlə qarşılaşdım, müsbət fikirlər eşitdim. Və əmin oldum ki, bərabər işləməyimiz, qarşılıqlı əlaqələrimiz üçün ayrı-ayrı sahələr üzrə gözəl imkanlar mövcuddur. Böyük Britaniya ilə Azərbaycanın Naxçıvan Muxtar Respublikası arasında daha uzunmüddətli və güclü münasibətlərin qurulacağına inanıram.

✍ **Nail ƏSGƏROV**

***Tank əleyhinə termin tank tipinə aid olsa da, əslində, bütün hərbi məqsədli texnikaları məhv etmək və ya zərərsizləşdirmək üçün istifadə olunan silah növlərini əhatə edir. İlk tank əleyhinə silahlar döyüş səhnəsində Birinci Dünya müharibəsi zamanı görünüb. Həmin dövrdən günümüzədək tank əleyhinə silahlar zirehdələn tüfəngdən idarəolunan raket komplekslərinə qədər inkişaf yolu keçib. Təbii ki, bu silahların rəqibləri olan bütün hərbi təyinatlı avtomobillər və zirehli tank texnikaları da müasirləşib. Məhz buna görə də, klassik müharibələr yerini müasir taktika ilə yeni nəsil silahlara verir. Bir məqamı da unutmayaq ki, müharibə taktikaları, silahlar və müdafiə vasitələri dəyişsə də, mərmi ilə zireh arasındakı qarşıdurma dəyişməz olaraq qalır. 44 günlük Vətən müharibəsində bunun şahidi olduq.***

*Ordun varsa, yurdun var*

# Qalib ordunun yenilməz tank əleyhinə bölmələri

## *Ənənəvi mərmi-zireh qarşıdurmasında qalib gələnlər*

Müharibədə Azərbaycan Ordusu yüksək peşəkarlıqla müasir silah sistemlərini tətbiq edərək qalib gəldi. Hərtərəfli düşünülmüş fəaliyyətlərlə yerinə yetirilən döyüş tapşırıqları nəticəsində düşmən üzərində inamlı Qələbə qazandıq. Təbii ki, Qələbənin qazanılmasında Naxçıvan Muxtar Respublikasından olan hərbi qulluqçuların da xüsusi rolu oldu. Əlahiddə Ümumqoşun Ordunun xüsusi təyinatlı bölmələri ilə bərabər, tank əleyhinə bölmələrindən döyüşlərə cəlb edilən heyət də düşmənin canlı qüvvəsinin və hərbi texnikasının məhv edilməsi tapşırıqlarını peşəkarlıqla yerinə yetirdi.

Döyüşlərdə iştirak edən baş leytenant Pərvin Tağızadə, gizir Abasət Mirzəyev, müddətdən artıq həqiqi hərbi xidmət hərbi qulluqçuları kiçik çavuş Elnur Məmmədov, kiçik çavuş Məmməd Dünyamalıyev və əsgər Nurəddin Nəbiyev müxtəlif adda medal və dövlət təltiflərinə layiq görülüblər. Tank əleyhinə bölmənin heyəti Füzulinin, Xocavəndin və Şuşanın azad olunmasına görə, "Döyüşdə fərqlənməyə görə" və "Şücaətə





görə" medalları ilə təltif ediliblər. Müharibədə yaralanaraq ehtiyata buraxılan müddətdən artıq həqiqi hərbi xidmət hərbi qulluqçusu əsgər Nurəddin Nəbiyevdən başqa döyüşlərdə iştirak edən digər hərbi qulluqçular hazırda xidmətlərini davam etdirir və qazandıqları döyüş təcrübəsini gənc heyətlərə öyrədirlər. Qazi Nurəddin Nəbiyev də gənclərlə keçirilən tədbirlərdə iştirak edir və müharibə xatirələrindən danışır.

Əlahiddə Ümumqoşun Ordunun tank əleyhinə bölmələri "Təlimdə tər, döyüşdə zəfər!" prinsipi ilə keçirilən təlimlərdə peşəkarlaşaraq döyüşlər zamanı düşmən texnikalarının dəqiqliklə məhv edilməsi tapşırıqlarını uğurla yerinə yetirdilər. Döyüş atışlı təlimlərdə, məşğələ və ixtisas toplantılarında əldə edilən nailiyyətlər özünü Vətən müharibəsində doğruldaraq Qələbənin qazanılmasında mühüm rol oynadı. Tank əleyhinə bölmələrdə plana uyğun məşğələ, təlim, ixtisas toplantısı və "Ən yaxşı tank əleyhinə batareya" adı uğrunda yarışlar keçirilir. Təlim və məşğələlərdə Vətən müharibəsində düşmən texnikalarının dəqiqliklə məhv edilməsi tapşırıqlarını uğurla yerinə yetirmiş tank əleyhinə bölmələrin döyüş təcrübəsi gənclərə öyrədilir.

Əlahiddə Ümumqoşun Ordunun tank əleyhinə bölmələrində şəxsi heyətin mənəvi-psixoloji, fiziki və döyüş hazırlığının yüksək səviyyədə saxlanılması işinə tələbkarlıqla yanaşılır. Bölmələrdən birində xidmət edən zabitlərdən Ruzi Əsgərov, Mahir Fərzəliyev, Ramal Hüseynov və Telman Niftəliyev hərbi hissədə nümunəvi xidmət üçün yaradılan şəraitdən və keçirilən təlimlərdən qürurla danışdılar. Zabitlərimiz həm də ona görə qürurlu idilər ki, onların hərbi hissəsindən döyüşlərdə iştirak edən tank əleyhinə heyət düşmənin canlı qüvvəsini və hərbi texnikalarını tank əleyhinə idarəolunan raket komplekslər ilə məhv edib. Zabitlər onu da qeyd etdilər ki, döyüşlərdə heyətin köməyinə peşəkarlıqları ilə yanaşı, sürətli manevr edərək istənilən hava şəraitində düşmənin hərəkətsiz və hərəkətdə olan tank və digər zirehli texnikalarını məhv etmək imkanına malik qabaqcıl texnologiyalı silah sistemləri də çatıb. Bu tank əleyhinə idarəolunan raket kompleksləri ilə düşmənin müdafiə qurğularına səmərəli atəş açmaq, kəşfiyyat xarakterli fəaliyyətlər yerinə yetirmək və yerüstü müşahidə məntəqələrindən müşahidə olunmayan hədəfləri məhv etmək mümkündür. Bu gün də şəxsi heyətə döyüşdə qazanılan təcrübə ilə ən müasir silah sistemlərindən istifadə bacarıqları aşılanır.

Bir neçə gün əvvəl "Naxçıvan Qarnizonu Qoşunlarının 2021-ci tədris ilinə uzlaşma planı"na əsasən Əlahiddə Ümumqoşun Ordunun artilleriya, reaktiv, minaatan və tank əleyhinə batareyaları ilə keçirilən döyüş atışlı taktiki təlimlərdə bölmələrin uzlaşmasına və səhra verdişlərinin yüksəldilməsinə, taktiki və atəşlə manevrinə geniş yer verilib. "Düşmənin qəfil hücumunun dəf edilməsi və müdafiənin əlverişli hədlər üzrə bərpası zamanı artilleriya bölmələrinin fəaliyyəti" mövzusunda keçirilən təlimlərdə tank təhlükəli istiqamətdə tank əleyhinə batareyalar və düzünə tuşlamaya çıxarılmış toplar şərti düşmənin zirehli texnikalarını sıradan çıxarıb.





Əlahiddə Ümumqoşun Ordunun tank əleyhinə batareyaları praktik atışlardan öncə Naxçıvan Qarnizonunun Simulyasiya mərkəzində xüsusi proqram təminatına malik kompüter və məşq qurğularında müvafiq tapşırıqları icra edib, virtual təlim meydançasında döyüş sursatı və yanacaq sərf etmədən müxtəlif şəraitdə atış və atışın idarəolunması həyata keçirilib. Təlimlərin sonunda atəş göstəricilərinin dəqiqliyi müqayisə edilib, şəxsi heyətin bilik səviyyəsinin müəyyənləşdirilməsi aparılıb, bölmələrin fəaliyyəti yüksək qiymətləndirilib.

Təlimlərdə tank əleyhinə bölmələrin əsgərlərindən Rahil Əzizov, İbadət Baxışov, Nicat Nəsibov, Məhəmməd Kərimov, Fərid Ağayev, Baloğlan Qurbanov, Cəlal Bilalov, Vüsal Abdullayev, İsgəndər Muxammatov, Mirəli Əhmədov və İsmayıl İsmayılzadə fərqlənərək döyüş tapşırıqlarının canla-başla yerinə yetirib, hədəflərin məhv edilməsində ustalıq nümayiş etdiriblər.

Plana uyğun olaraq Əlahiddə Ümumqoşun Orduda keçirilən "Ən yaxşı tank əleyhinə batareya" adı uğrunda yarışda heyətlərin fərdi və qrup halında normativlər götürülən zaman verilən tapşırıqları böyük həvəslə icra etmələri ideoloji işin müntəzəm və düzgün aparılmasından xəbər verir. Yarışda tank təhlükəli istiqamətdə açılma hədlərinin tutulması, şərti düşmənin hərəkətli və hərəkətsiz hədəflərinin məhv edilməsi tapşırıqları yerinə yetirilib. Yarışın ümumi nəticələrinə əsasən tank əleyhinə idarəolunan raketlər batareyası birinci olub. Qalib batareyanın şəxsi heyəti Əlahiddə Ümumqoşun Ordu komandanlığı tərəfindən həvəsləndirilərək mükafatlandırılıb.

"Ən yaxşı" adına layiq görülən batareyanın komandiri Oğuz Ağayev qeyd etdi ki, bütün bu uğurlara şəxsi heyətin taktiki, texniki və ixtisas hazırlığının yüksəldilməsi, metodik vərdişlərin təkmilləşdirilməsi məqsədilə keçirilən məşğələ və toplantılarla nail olunub. Daim ixtisas bilikləri və praktik bacarıqları artırılan əsgərlərimiz yarışın şərtlərinə vaxtında və düzgün əməl etməklə batareyamıza "Ən yaxşı" adını qazandırdılar. Yarışda batareyanın hər bir hərbi qulluqçusu əzmkarlıq nümayiş etdirərək gizir Təbriz Həsənov, əsgərlərimizdən Növqar Məmmədov, Yusif Seyidzadə, Daşqın Alməmmədov və digərləri fərqlənənlərdən oldular. Mənəvi və fiziki cəhətdən sağlam, döyüş hazırlığı cəhətdən peşəkarlıq və yenilməzlik tank əleyhinə bölmələrimizə də daxil olmaqla Əlahiddə Ümumqoşun Ordunun bütün birləşmə, hissə və bölmələrində xidmət edən şəxsi heyətə əhatə edir.

Bu gün dövlət qayğısı ilə əhatə edilən və yüksək mənəvi keyfiyyətlərə malik olan hərbi qulluqçularımız xalq-ordu birliyindən güc alaraq ən çətin tapşırıqların icrasına daim hazırdırlar. Necə ki 44 günlük Vətən müharibəsində bunu bacardıq. Uzun illər müxtəlif mərhələlərdən keçərək formalaşmış Əlahiddə Ümumqoşun Ordunun qazanılan şanlı qələbədə xüsusi payı vardır. Vətən müharibəsində iştirak edən hər bir Vətən övladının əməyi dövlətimiz tərəfindən yüksək qiymətləndirilir, hərbi qulluqçuların, müharibə veteranlarının və şəhid ailələrinin sosial-məişət şəraitinin yaxşılaşdırılması sahəsində ardıcıl tədbirlər görülür.

Dövlət qayğısını və xalqın dəstəyini hər zaman hiss edən zabit və əsgərlərimiz həm də ən müasir silah sistemləri ilə təchiz edilir və tam təchizata malikdirlər. Məhz elə tank əleyhinə bölmələrin arsenalında mövcud olan qabaqcıl texnologiya ilə hazırlanmış silah və texnikalar qeyd olunanlara əyani sübutdur. Dünya hərb elmində "XXI əsrin müharibəsi" adını qazanan 44 günlük müharibədə çətin relyef şəraitində düşmənin onilliklərlə qurduğu mürəkkəb istehkamları darmadağın edən müzəffər Azərbaycan Ordusu əsl peşəkarlıq, yenilməz əzm nümayiş etdirdi və ən əsası Vətənə sonsuz məhəbbətlə uğrunda hər cür fədakarlığa istənilən şəraitdə hazır olduğunu bütün dünyaya isbat etdi. 44 günlük müharibə tank əleyhinə silahların günümüzədək inkişaf edərək müharibələrin taleyini necə dəyişdiyini də əyani olaraq göstərdi. Bu texnologiyalar o dərəcədə inkişaf edib ki, artıq zirehli tank texnikalarını helikopterlərə quraşdırılmış raket kompleksləri və pilotsuz uçuş aparatları ilə məhv etmək daha da asanlaşıb. Deməli, hücum təyyarələri və helikopterləri, pilotsuz uçuş aparatları və dronlar da mərmi-zireh qarşıdurmasında qalibin kim olduğunu əyani olaraq təsdiqləyir. İkinci Qarabağ savaşında düşmən texnikalarının məhv edilməsində pilotsuz uçuş aparatları önəmli rol oynadı, itkilərimizi azaltdı və son illərdir, mövcud olan güclü erməni istehkamlarını məhv etməyə kömək etdi. Sevindirici haldır ki, silah arsenalımızda mövcud olan ən müasir silah sistemləri və hərbi texnikalar peşəkar hərbçilərimizə təhkim edilib.

**Nəriman NƏCƏFOV**

## “Şərq qapısı” – 100

# Eyni amal uğrunda...

*Bu məqaləni qələmə almağa başlamazdan əvvəl nə vaxtsa oxucularımıza təqdim olunmuş bir yazımda müraciət etdiyim ümummilli liderimiz Heydər Əliyevin bu fikirlərini bir daha xatırladım:* ***“Jurnalistika çətin sənətdir. Bunu etiraf etmək lazımdır, asan sənət deyildir. Başqa bir yerdə, başqa bir peşə sahibi gəlib öz işində oturub işləyir, müəyyən saat qurtarandan sonra evinə gedir... Amma jurnalistin iş yeri yoxdur. Qəzetin redaksiyası da jurnalistin iş yeri deyildir. Çünki o, redaksiyada otursa, elə ancaq yuxarıya baxsa, bir şey yaza bilməyəcək, fəaliyyət də göstərə bilməyəcək. Demək, jurnalist gərək daim cəmiyyətlə əlaqədə olsun, insanlarla əlaqədə olsun və müxtəlif yerlərlə təmasda olsun ki, istədiyi məlumatı ala bilsin və onların əsasında istədiyi sahədə öz məqalələrini, öz əsərlərini yaza bilsin. Bu, asan iş deyildir. Mən bunu bilirəm və öz fikrimi başqalarına da bildirmək istəyirəm. Ona görə də biz gərək jurnalistlərə kömək edək”.***

Dahi rəhbərimizin bu dəyərli fikirləri bütün dövrlərin jurnalistikası üçün olduqca aktualdır. Elə götürək bir neçə ildir, çalışdığım və mənə ailəm qədər doğma olan “Şərq qapısı” qəzetini. Həmkarlarım, gün ərzində baş verən ictimai-siyasi yenilikləri, günün nəbzini tutan vacib və aktual xəbərləri ictimaiyyətin diqqətinə çatdırmağa can atır, necə deyərlər, yaşadığımız informasiya rəqabəti əsrində cəfakeşlik nümunəsi göstərirlər.

Redaksiyamızın əməkdaşlarına bu fədakar əməyində uğurlar diləyərək başqa bir məqamı da diqqətə çatdırmaq istəyirəm. Bu da bir həqiqətdir ki, qəzetin ərsəyə gəlməsində təkcə qələm sahiblərinin, yaradıcı insanların əməyi keçmir. Çünki qəzetçilik işinin texniki cəhəti də var. Qəzet üçün yazıların hazırlanması işin birinci mərhələsidir. Sonra isə həmin yazıların kompüter vasitəsilə yığılması, qəzetçilikdə ən önəmli proseslərdən biri olan səhifələrin dizayn edilməsi və nəhayət, son nəticədə, mətbəədə çap olunması zəhmətli və uzun bir prosesdir. Uzun sözün qısası, qəzetçilikdə mətbəə işinin rolu danılmazdır. Bu mənada, qəzetimizin gündəlik nömrələrinin işıq üzü görməsində “Əcəmi” Nəşriyyat-Poliqrafiya Birliyi kollektivinin əməyi böyükdür.



Düzdür, bu gün mətbəədə o qədər yüksək poliqrafik keyfiyyətə, müasir və sürətli iş prinsipinə əsaslanan avadanlıqlar qurulub ki, əvvəllər min bir zəhmət bahasına başa gələn nəşriyyat işi indi xeyli asanlaşıb. Mətbəənin redaksiyamızla eyni binada yerləşməsi də işin keyfiyyətinə və sürətinə öz təsirini göstərir. Hər səhər işə gələrkən bizi qarşılayan yaraşıqlı binanı görəndə nədənsə həmişə əvvəlki illərlə müqayisə etmək fikri düşüncəmdə dolaşır. Düzdür, o dövrü görməsəm də, dillərdən eşitdiyim xatirələr, qəzet və kitab səhifələrindən oxuduğum yazılardan dövrlə bərabər qəzetçilik və mətbəə işinin də xeyli dəyişdiyinin şahidi oluruq. Elə bu günlərdə arxivimizdə rastıma çıxan yazının bir hissəsini sizinlə paylaşsam, əminəm ki, siz də mənimlə bərabər o illərə gedəcəksiniz. Qəzetimizin 2001-ci il, 21 iyul tarixli nömrəsində oxuyuruq:

*“Atamdan molla dərsi alan Qulu əmi məni mətbəəyə gətirəndə çox cavan idim. Mətbəə deyəndə ki, balaca bir yer idi. Məni ayrı-ayrı gözləri olan qara qutunun yanına gətirdilər. Qutunun içindəkilər mənə ilk baxışda tumu xatırlatdı. Dedilər ki, bunlar hərflərdir (Sonra şrift deyirdik). Onları sözlərə görə seçib yan-yana yığırdıq. Hər gün yüz mindən çox hərf yığmalı idik (Bunları dedikdə Şulan əmi yarı getmiş dırnaqlarına baxırdı). Mətbəədə hər iş əllə görülürdü. Yığımdan tutmuş, çapa qədər. “Şərq qapısı” qəzetini, – deyirəm. Camaat təzə-təzə savadlanırdı. Odur ki, oxumağa həvəsli idi.*

*Bir gün səhər işə gələndə dedilər ki, müharibə başlayıb. Adamlar səfərbər oldu. İş yoldaşlarım mürəttib Əqil Çərkəzzadə, yığıcılardan Əhməd Əliyev, Məmməd Hacıyev, Məmmədəli Heydərov hərbi komissarlığa çağırıldılar. Həmin vaxt Naxçıvan Maşın Traktor Stansiyasında siyasi işlərə baxan xalq yazıçısı Mirzə İbrahimov, polkovnik Hüseyn Nəcəfov mənim arxa cəbhədə qalmağımı məsləhət gördülər. Qaldı bir mətbəə, bir də mən. Həm müdir idim, həm fəhlə. Cəbhədən məlumat gözləyən adamların ümid yeri radio və qəzet idi. Odur ki, gündəlik çıxan qəzeti yerlərə vaxtında çatdırmağa çalışırdıq. Buna qane olmayanlar mətbəəyə gəlib rəng qoxusu çəkilməyən qəzeti bizdən alırdılar. Əsəd Cəfərli, Lətif Hüseynzadə, Əli Əliyev belə qəzet azarkeşlərindən idilər. Zarafatla deyərdim: “Yəqin ki, qəpiyinizə qıymırsınız”.*

*Şulan əmi rayonlarda olan mətbəələrə də nəzarət edərdi.*

*– Şulan əmi ən çox çətinliyiniz hansı sahədə olurdu, – deyə maraqlandım.*

*Deyir ki, qəzetdə şəkil vermək bizim üçün müşkül işə çevrilmişdi. Sadə lenotip maşınımız olsa da, qəzetdə şəkil sarıdan “söz” deyə bilmirdik. Təcili tədbirlər olanda, yubiley nömrələri hazırlananda çarəsiz qalırdıq. Bakıdan dedilər ki, bir nəfər göndərin sinkoqrafiya prosesini öyrənsin. Sonra sizə bu iş üçün maşın verək. Elə də etdik. Gənc bir oğlanı o vaxt “Azpoliqraftrest” deyilən ünvana göndərdik.*

*... Sonra illər keçir. Texnologiya inkişaf edir. Mətbəədə yeni avadanlıqlar qurulur, rotasiya maşını gətirilir. Kiçikformatlı qəzet böyük formatda nəşr olunur. O illəri Şulan əmi belə xatırlayır: – Bir gün redaktor, rəhmətlik Rəşid Qazıbəyov məni yanına çağırıb dedi ki, Şulan usta, heç kimə demə qəzeti böyütmək üçün razılıq almışam. “Şərq qapısı” böyük formatda çıxacaq... Çalışdıq, səy qoyduq, çox çətinliklə olsa da, qəzeti böyük formatda çıxarmağa başladıq. Bu sözləri 80 yaşlı “Şərq qapısı” qəzetinin keçdiyi yolun canlı şahidi olmuş təcrübəli mürəttib Rza Seyidov – Şulan usta deyir. Onun neçə-neçə yetirməsi mətbəədə çalışıb. Keçdiyi gənclik illərini qəzet səhifələrində, sətirlərində axtaran Rza Seyidova hər zaman Şulan usta kimi müraciət edilib...”*



Bu xatirəni oxuduqda jurnalistika sahəsinin, qəzetçilik işinin, doğrudan da, fədakarlıq nümunəsi olması bir daha öz təsdiqini tapır. Doğrudur, müasir dövrümüzdə yüksək texnoloji inkişaf həmkarlarıma daha rahat və məhsuldar çalışmağa, mətbəədə daha az əməklə daha çox iş görməyə imkan verir. Necə deyərlər, o zaman bir neçə saat ərzində yüzlərlə şrift quraşdırıb bir səhifə dərc olunurdusa, bu gün tək bir düymə ilə bir neçə dəqiqə zaman kəsiyində minlərlə səhifə çap edilir. Dövlətimizin yaratdığı şəraiti, jurnalistika sahəsinə göstərdiyi diqqət və qayğını bu gün “Əcəmi” Nəşriyyat-Poliqrafiya Birliyinin fəaliyyətində tam mənası ilə görürük.

İstərdim, bu məqamda muxtar respublikamızda çap məhsullarının istehsalının tarixi ilə sizi qısaca tanış edəm. Naxçıvanda nəşriyyat işinin tarixi ötən əsrin əvvəllərindən başlanır. Belə ki, 1921-ci ildə Naxçıvanda ilk çap sexi yaradılıb və bu müəssisə 1938-ci ilədək “Şərq qapısı” qəzeti redaksiyasının nəzdində olan mətbəə kimi fəaliyyət göstərib. Bundan sonra isə Naxçıvan mətbəəsi adı ilə müstəqil müəssisəyə çevrilib. Uzun illər ərzində müxtəlif yerlərdə uyğunlaşdırılmış binalarda köhnə avadanlıqlarla fəaliyyət göstərən müəssisənin işində əsaslı dönüş 2001-ci il martın 29-da Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri tərəfindən imzalanmış “Naxçıvan Muxtar Respublikasında dövlət mətbuat orqanlarının maddi-texniki vəziyyətinin yaxşılaşdırılması tədbirləri haqqında” Sərəncamından sonra başlayıb. Bundan sonra muxtar respublikada fəaliyyət göstərən digər mətbuat orqanları kimi, “Əcəmi” Nəşriyyat-Poliqrafiya Birliyinin də fəaliyyəti üçün əlverişli iş şəraiti yaradılıb və maddi-texniki bazası möhkəmləndirilib. Beləliklə, 1997-ci ildən fəaliyyət göstərən müəssisə 2001-ci ildə Naxçıvan Muxtar Respublikası Ali Məclisinin balansına verilərək yüksək qayğı ilə əhatə olunub. Bu gün Nəşriyyat-Poliqrafiya Birliyinin muxtar respublikada işıq üzü görən qəzetlərlə yanaşı, digər çap məhsullarının istehsalında da böyük rolu var.



Artıq bu nəşriyyat müəssisəsi ən müasir texnologiyaya əsaslanan kompüter və çap avadanlıqları ilə təmin olunub. “Əcəmi” Nəşriyyat-Poliqrafiya Birliyinin 2010-cu ildə istifadəyə verilmiş yeni binada yerləşdirilməsi və burada yüksək poliqrafik göstəricilərə malik Almaniya istehsalı olan çap avadanlığının quraşdırılması, 2015-ci ildə isə ikinci belə bir avadanlığın alınması muxtar respublikada nəşriyyat-poliqrafiya işinə göstərilən diqqətin bariz nümunəsidir. Bu gün Naxçıvanda 100 yaşlı qocaman “Şərq qapısı”, eyni zamanda şəhər və rayon qəzetlərinin, habelə müxtəlif kitab və jurnalların rəngli formatda nəşr olunması yüksək səviyyədə həyata keçirilir. Bunlardan əlavə, “Əcəmi” Nəşriyyat-Poliqrafiya Birliyi tərəfindən müəssisə və təşkilatlar üçün dəftərxana kitabları, sadə və ciddi hesabat blankları, müxtəlif qəbzlər, təqvimlər, etiketlər, dərslik və dəftərlərin hazırlanması həyata keçirilir. Müəssisəyə dövlət sifarişlərindən başqa, gün ərzində muxtar respublikada fəaliyyət göstərən elm və mədəniyyət müəssisələri tərəfindən də yüzlərlə müxtəlif çap sifarişləri daxil olur, bu məhsullar yüksək standartlar və müasir dizayn əsasında qısa müddətdə hazırlanır.

Bir daha müqayisə aparsaq, birliyin əməkdaşlarının da dediyi kimi, əvvəllər mətbəəmizdə çap edilən məhsullar primitiv alınır, oxucu tələbini, demək olar ki, ödəmirdi. Köhnə, istismar müddətini başa vurmuş maşınlarda çap nümunələri də keyfiyyətsiz alınırdı. Müstəqillik illərinin bəhrəsi kimi 2010-cu ildən “Əcəmi” Nəşriyyat-Poliqrafiya Birliyinin fəaliyyətində yeni dövrün başlanğıcı oldu. İndi mətbəədə çapı sifariş edilən nəşr nümunələri ölçüsündən, həcmindən, nüsxəsindən, tirajından və formatından asılı olmayaraq, qısa zamanda və yüksək poliqrafik keyfiyyətdə hazırlanaraq sifarişçiyə və ictimaiyyətə təqdim olunur.

Bir faktı da qeyd edək ki, cari ildə Naxçıvan şəhərindəki Kitab Evində yeni sərgi-satış mərkəzi yaradılmış, iyulun 29-da Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri cənab Vasif Talıbov “Əcəmi” Nəşriyyat-Poliqrafiya Birliyinin Sərgi-Satış Mərkəzində yaradılan şəraitlə tanış olmuşdur.

Mərkəzdə ümummilli lider Heydər Əliyevin həyat və fəaliyyətinə həsr olunmuş kitablar, müstəqillik illərində Naxçıvanla bağlı çap olunmuş elmi ədəbiyyatlar, oxunması zəruri olan kitablar, Yazıçılar Birliyi üzvlərinin əsərləri, müxtəlif bədii ədəbiyyatlar, dəftərxana ləvazimatları, müəllimlər üçün dərs planları, lüğət dəftərləri, hüsnxətlər, dəftərlər, məktəbli kitabçaları, ümumilikdə, “Əcəmi” Nəşriyyat-Poliqrafiya Birliyində nəşr olunmuş 15 minə yaxın məhsul satışa çıxarılmışdır. Həmçinin burada “Nəşriyyat xidmətləri” bölməsi yaradılmış, mətbəə işlərinin görülməsi üçün çoxfunksiyalı çap avadanlıqları qoyulmuşdur. Mərkəzdə 3 nəfər işlə təmin olunmuşdur.

Elə mən və həmkarlarımın hazırladığı materialların nəşr də gözümün qabağında gedən proses kimi məni qürurlandırır. Yazılarımızın qəzetin səhifələrinə köçürülməsi bir çox proseslərdən keçir və mətbəə əməkdaşlarının zəhməti sayəsində oxucuların görüşünə gəlir. Belə ki, redaksiyamızda hazırladığımız materiallar kompüterdə yığılıb dizayn edildikdən sonra “PDF” formatında nəşriyyata təqdim edilir. Burada ən müasir poliqrafiya avadanlıqları ilə müvafiq dizayn, rəngayırma, qatlama və digər proseslərdən keçir və sonra əvvəlcədən müəyyən olunmuş tirajda çap olunur. Xüsusilə qəzet səhifələrinin nəfis tərtibatda və keyfiyyətlə nəşr olunması burada çalışan əməkdaşlardan yüksək diqqət tələb edir və çap prosesi, əsasən, günün sonundan gecə saatlarınadək davam edir. Min bir zəhmət, diqqət və böyük məsuliyyət hissi ilə ərsəyə gələn qəzetlər səhər tezdən abunəçi ünvanlarına çatdırılır. Həmçinin kitab və jurnalların nəşri də ən müasir tələblər əsasında və keyfiyyətli şəkildə aparılır. Buradakı müasir avadanlıqlar kitabların bir neçə variantda və minlərlə tirajda nəşrinə imkan verir. Əvvəllər çətin və uzun zaman tələb edən kitab nəşri indi bu avadanlıqlar sayəsində daha keyfiyyətli və qısa zaman çərçivəsində işi başa çatdırmağa imkan verir.

*Bu gün 100 yaşını böyük qürur və saysız uğurlarla qeyd etdiyimiz “Şərq qapısı” qəzetinin hər səhifəsinin ərsəyə gəlməsində bizimlə çiyin-çiyinə çalışan “Əcəmi” Nəşriyyat-Poliqrafiya Birliyinin fədakar kollektivinin də danılmaz əməyi var. Mətbəəmiz redaksiya heyətinin hər bir əməkdaşı üçün çox doğmadır. Eyni inzibati binada fəaliyyət göstərməyimiz bizi bir kollektiv kimi daha sıx bağlayır. Elə amalımız da fəaliyyətimiz kimi birdir: dövlətçiliyimizə, onun ideyalarına sədaqətlə xidmət etmək. Bu yolda kollektivin hər bir üzvünə uğurlar diləyi ilə...*

**Gülcamal TAHİROVA**

## Növbəti aktivlər təqdim olunub

Naxçıvan Muxtar Respublikası Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi tərəfindən noyabr ayında həyata keçirilmiş özünüməşğulluq tədbirləri çərçivəsində muxtar respublika üzrə 27 sosial qayğıya ehtiyacı olan ailə müəyyənləşdirilib və bu şəxslərdən 16 nəfərin hər birinə 2 baş iribuynuzlu, 5 nəfərin hər birinə 20 baş xırdabuynuzlu, 4 nəfərə miniyerşumlayan aqreqat, 1 nəfərə unlu və qənnadı məmulatların hazırlanması üçün avadanlıq və ləvazimatlar, 1 nəfərə isə odunkəsən və otbiçən aparat verilib. Bu mərhələdə təsərrüfatlarını nümunəvi şəkildə inkişaf etdirdiyinə görə 1 nəfər həvəsləndirmə tədbirlərinə cəlb edilib və ona südsağan aqreqat verilib.

Növbəti aktivlərin sənədlərinin təqdim olunması məqsədilə keçirilən tədbirdə çıxış edən Naxçıvan Muxtar Respublikası əmək və əhalinin sosial müdafiəsi naziri Nicat Babayev muxtar respublikada sosial qayğıya ehtiyacı olan ailələrə göstərilən dövlət qayğısı, onların məşğulluğunun təmin edilməsi istiqamətində həyata keçirilən tədbirlər barədə danışıb, muxtar respublikada sosial qayğıya ehtiyacı olan şəxslərə göstərilən dövlət qayğısına görə Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədrinə minnətdarlığını bildirib.

Naxçıvan Muxtar Respublikası Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin Dövlət Məşğulluq Agentliyinin direktoru Heydər Quliyev və Şərur Rayon Məşğulluq Mərkəzinin direktoru Samir Qasımov ötən dövr ərzində proqramın icrası çərçivəsində görülən işlərdən danışıblar.

Sonda ailə təmsilçilərinə müvafiq sənədlər təqdim olunub, vətəndaşlar göstərilən diqqət və qayğıya görə minnətdarlıqlarını bildiriblər.

***Naxçıvan Muxtar Respublikası Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin mətbuat xidməti***

## Seminar keçirilmişdir



Naxçıvan Muxtar Respublikası Ədliyyə Nazirliyinin və İnsan Hüquqları üzrə Müvəkkili (Ombudsman) aparatının 2021-ci il üçün təsdiq etdiyi birgə “Tədbirlər Planı”nın icrası ilə əlaqədar muxtar respublikada fəaliyyət göstərən qeyri-hökumət təşkilatlarının nümayəndələri üçün seminar təşkil edilmişdir. Hər iki dövlət orqanının əməkdaşlarının çıxış etdiyi seminarda bu sahəyə göstərilən dövlət qayğısından bəhs olunmuş, ölkəmizdə vətəndaş cəmiyyəti quruculuğu sahəsində görülmüş zəruri tədbirlərdən danışılmışdır. Qeyd edilmişdir ki, bu təşkilatların qanuna uyğun fəaliyyətinin təmin olunması istiqamətində qanunvericiliklə müəyyən edilən tədbirlər həyata keçirilmiş, dövlət dəstəyinin olması, onların fəaliyyətinə öz müsbət təsirini göstərmişdir.

Vurğulanmışdır ki, qeyri-hökumət təşkilatları hökumətdən asılı olmayaraq, fəaliyyət göstərən özünü vətəndaş cəmiyyətinə aid edən müxtəlif ictimai birliklər, komitələr, fondlar, institutlar və digər təşkilatların şəbəkəsidir. Qeyri-hökumət təşkilatlarının fəaliyyətlərinin canlanmasında onların səmərəli işləmələrinə müsbət təsir göstərən hüquqi bazanın formalaşması mühüm rol oynamışdır. Bu sahənin formalaşması və inkişafı ilə bağlı qəbul edilmiş qanunvericilik aktları aidiyyəti qurumların hərtərəfli fəaliyyətinə zəmin yaratmışdır.

Seminarda mövzu ilə yanaşı, onların ayrı-ayrılıqda maraqlandıqları mövzular ətrafında müzakirələr aparılmışdır.

***Naxçıvan Muxtar Respublikası Ədliyyə Nazirliyinin mətbuat xidməti***

*Milli dəyərlərimizi öyrənək və yaşadaq*

# Mübarizlik və qəhrəmanlıq tariximizin nişanəsi

*Ümummilli liderimiz Heydər Əliyevin* ***"Xalq gərək daim öz kökünü xatırlasın"*** *müdrik kəlamının təntənəsini ən yüksək səviyyədə yaşayırıq düşmənimiz üzərində böyük tarixi zəfər qazanmaqla. Təbii ki, qələbəni şərtləndirən əsas amil xalq olaraq birliyimiz, bərabərliyimiz, Müzəffər Ali Baş Komandanın siyasi iradəsi, məğrur oğullarımızın əzmi, qətiyyətidir ki, bu üstün məziyyətlər də birmənalı şəkildə keçmişə dərin hörmətdən, milli kökə bağlılıqdan irəli gəlir. Gəncliyin hərbi-vətənpərvərlik tərbiyəsini artırmaq, gənclərə ata-babalarımızın döyüş ənənələrini öyrətmək üçün dəyərli nümunələrdən sayılan, milli kimliyimizin açarı "Kitabi-Dədə Qorqud", eləcə də qəhrəmanlıq salnaməmiz "Koroğlu" dastanlarını oxuduqca əcdadlarımızın necə mübariz ruhlu, torpaq təəssübkeşi, yurdsevər olduğunu görürük. Xalqımızın tarixən yadellilərə qarşı haqlı mübarizələr, müharibələr aparması, heç şübhəsiz, ölkəmizdə bütün sənətkarlıq sahələri ilə yanaşı, silahsazlığın da inkişafına təkan verib, el arasında işinin mahiri kimi tanınan silahsazlar torpaqlarımızın qorunması naminə öz töhfələrini əsirgəməyiblər...*

Tarixə nəzər salanda görürük ki, XIV əsrdə Teymurilər dövlətinin banisi Əmir Teymurun şəxsi göstərişinə əsasən Azərbaycan xalqından xərac olaraq xəncər və ox ucluqları tələb edilirdi. Həmin dövrdə Naxçıvan, Şamaxı, Lahıc kimi yaşayış məntəqələrinin silah ustaları bütün dünyada məşhurlaşmışdı. Günümüzdə Şamaxı, Tiflis və Çərkəz silahsazlıq məktəbləri daha çox tanınsa da, ancaq az sayda insan məlumatlıdır ki, Çərkəz məktəbi yaranmamışdan əvvəl artıq Naxçıvanda silahsazlıq məktəbi



mövcud olub. Görkəmli türk səyyahı Övliya Çələbinin yazılarından da görünür ki, hələ XVII əsrin ortalarında Naxçıvan inkişaf etmiş şəhərsalma infrastrukturuna malik idi. Onun yazılarından belə məlum olur ki, Naxçıvanda 1000-ə yaxın dükan mövcud imiş. Bunların arasında çoxsaylı müxtəlif peşə sahiblərinin, eləcə də silahsazların emalatxanaları çoxluq təşkil edirdi... "Əcayib-əd-dünya" adlı əlyazmasında Naxçıvan haqqında verilən ətraflı yazılardan da görünür ki, hələ Atabəylərin əzəmətli günlərində Eldəgizin ordusunun təchizatının böyük qismi Naxçıvan silahsazları tərəfindən təmin olunurdu. Qədim və orta əsrlərə aid qalalar, o cümlədən də əzəmətli görkəmi ilə muxtar respublikamıza səfər edən qonaqların böyük təəccübünə səbəb olan, Əmir Teymurun əlçatmaz röyasına çevrilən 14 illik şəraf, ləyaqət dastanı yazan Əlincəqala da məhz silahsazlığın tarixindən söz açan mənbələrdəndir...

Bu gün Naxçıvan şəhərində yaşayan, Naxçıvan Dövlət Texniki Kollecinin hərbi rəhbəri Araz Məmmədov da qədim el sənətimizin yaşadılması, tarixi inkişaf mərhələlərinin öyrənilərək gələcək nəsillərə çatdırılması üçün çalışır. Ömrünün çox hissəsini hərb sənətinə sərf edən Araz müəllim hələ orta məktəbdə təhsil aldığı dövrdən incəsənətə, qeyri-adi əl işlərinə maraq göstərib, fərqli nümunələrdən kolleksiya toplamağı hobbiyə çevirib. Məhz elə bu amil onu dədə-baba sənətimiz olan silahsazlığa yönəldib. Hazırda kolleksiyasında Səfəvilər dövrünə aid pul sikkəsi, 1853-cü ilin süngüsü, 1943-cü il istehsallı alman tüfənginin süngü bıçağı olan Araz müəllim deyir ki, tarixən Naxçıvan silahsazları özünəxas metalişləmə və silahqayırma texnologiyalarını mənimsəmişlər. Qədim diyarda formalaşan sənət sahəsi digərlərindən bir sıra üstün məziyyətləri ilə seçilir. Nümunə üçün qeyd edim ki, Naxçıvan silahsazları xəncərin qırılmaya qarşı dözümlü olması üçün xəncər tiyəsinin hər iki tərəfini sərt poladlaşdıraraq orta hissəsinin daha yumşaq metal olaraq qalması və ya poladın qoyun quyruğunda (təbii piydə) ani soyudulması kimi bir çox yeniliklər etmişlər. Bu xəncərin digərlərindən fərqi uc hissəsinin daha mürəkkəb quruluşa malik altıkünclü olmasıdır ki, bu da döyüş zamanı düşmən qüvvələrinin qoruyucu vasitələrinin asanlıqla sıradan çıxarılmasına imkan verərək müharibənin taleyində üstünlüyün qazanılmasında böyük rol oynayıb. Təəssüf ki, 1828-ci ildə imzalanmış Türkmənçay müqaviləsinə əsasən Naxçıvanda silahsazlıq Rusiya imperatoru tərəfindən qətiyyətlə qadağan edilib, hətta gizli şəkildə silah istehsal edənlər tapılaraq ağır şəkildə cəzalandırılıblar. Nəticədə, Naxçıvanda silah ustaları öz sənətlərini buraxıb və ya Təbrizə, Zəncana mühacirət etməyə məcbur qalıblar. Elə bu səbəbdəndir ki, günümüzdə dünya ictimaiyyəti Naxçıvan silahsazlıq məktəbinin əl işlərini müəyyən etməkdə yalnışlığa yol verir. Bir sıra tanınmış muzeylərdə sərgilənən silahsazlıq nümunələrimiz başqa bir xalqın adına yazılır...

Araz müəllim qeyd edir ki, tarixi mübarizə simvolumuz sayılan xəncər haqqında danışdıqda ilk olaraq milli folklorumuza və adət-ənənələrimizə nəzər yetirmək lazımdır. Belə ki, milli rəqslərimizi incələdiyimizdə, oğlanların qılıncoynatma, qızların isə su səhəngləri ilə hərəkət səhnələri qarşımıza çıxır. Hər iki tərəf, öz növbəsində, bacarıq və qabiliyyətini ortaya qoyur. Oğlanlar cəngavərlikləri ilə öz ailə və yurdlarını necə mühafizə etməyə hazır, qızlar isə ailədə qadının üzərinə düşən ağır yükü daşımağa qadir olduqlarını göstərirlər. Günümüzdə bir çoxları "söz kəsmək" (göbəkkəsmə) ifadəsini işlədir, lakin az insan bu sözlərin həqiqi mənasını, mahiyyətini bilir. Belə ki, keçmişdə özünəməxsus bir ənənə mövcud idi. Oğlan və qız uşaqları hələ beşikdə ikən ataları öz aralarında sözləşərək, uşaqlarının böyüdükdə bir-biri ilə evlənəcəklərini vəd edərdilər. Bu zaman oğlan atası qız atasına xəncər verərdi. Toy günü qız öz cehizləri ilə birlikdə həmin xəncəri də gətirərdi. Beləliklə, bu adət-ənənədən də görünür ki, xəncər xalqımız üçün ən əhəmiyyətli silah növü olmaqla yanaşı, şəraf, ləyaqət və qeyrət rəmzi hesab edilirdi. Əcdadlarımız həmişə belə hesab edərdilər ki, əsl xəncər hazırlanarkən usta ona öz ruhunun bir parçasını vermiş və hər xəncərin öz ruhu olmuşdur. Xəncər həm kişilərdə, həm də qadınlarda olar, bu silah növü həm müdafiə, həm də məişətdə istifadə üçün nəzərdə tutulardı. Kişilər çox zaman xəncərlərini yastıqlarının altına qoyub yatardılar. Çöl şəraitində gecələyən zaman isə ümumiyyətlə, xəncəri çıxarmazdılar. Əcdadlarımız üçün döyüşdə məğlub edilmiş düşmənin xəncərini qənimət kimi götürmək şöhrət, hər hansı bir halda xəncəri oğurlamaq isə ən böyük şərəfsizlik hesab edilərdi. Xüsusi hallarda xəncərlər hədiyyə də olunardı. Xəncər ilk əvvəl oğlan uşaqlarına, daha sonra isə hörmətli şəxslərə, qız-gəlinə hədiyyə verilərdi. Hörmətli şəxslərə ehtiram əlaməti kimi xəncər hədiyyə edilməsinin dərin mənası var idi: "Sözün bu xəncər kimi kəsici olsun".

Xəncərin hazırlanma qaydası haqqında məlumat verən Araz müəllim qeyd edir ki, bu soyuq silahı əldə etmək üçün əvvəlcə polad materialı odun peçində 1200-1300 dərəcə temperaturda qızdırılır, daha sonra zindan üzərində döyülür. Silahsazın əsl gücü, məharəti, dözümlüyü də məhz bu prosesdə ortaya çıxır. Metal parçası müəyyən formaya düşdükdən sonra üzərində xəncərin eskizi cızılır, yenidən qızdırılaraq balta ilə kəsilir. Hazır şəklini alan silahın kənarları qavara daşı ilə itilənir. Tiyəsi isə ya cəviz ağacından, ya da sümükdən hazırlanaraq dəmir, mis, latundan biri ilə xəncərə birləşdirilir. Qını da istəyə uyğun olaraq cəviz, ərik, heyva ağaclarından hazırlamaq olar. Ümumiyyətlə, incəsənətin, sənətkarlığın bütün sahələri kimi, silahsazlıq da böyük zəhmət, təmkin, eyni zamanda da dəqiqlik tələb edir. Yalnız bu xarakterik xüsusiyyətləri özündə cəmləşdirən insan əsl silahsaz ola bilər. Təqdirəlayiq haldır ki, dövlətimiz tərəfindən el, xalq sənətlərinin yaşadılması üçün müvafiq işlər həyata keçirilir, muxtar respublikamızda Ali Məclis Sədrinin "Naxçıvan Muxtar Respublikasında Xalq yaradıcılığı günlərinin keçirilməsi haqqında" 2009-cu il 7 fevral tarixli Sərəncamının icrası daim diqqətdə saxlanılır, tariximizi, milliliyimizi təbliğ edən festivallar təşkil olunur. Ancaq gənclərimizin bu sahədə fəallığı elə də nəzərəçarpan dərəcədə ürəkaçan deyil. Fürsətdən istifadə edib gənc nəslə xitabən demək istəyirəm ki, gəlin milliliyimizi, soykökümüzü özündə yaşadan, mübarizliyimizin simvolu sayılan silahsazlıq sənətinin yox olmasına imkan verməyək, tariximizi yaşadaq ki, tarix də bizi yaşatsın...

Tarixi keçmişimizə, milli-mənəvi dəyərlərimizə hər zaman böyük hörmətlə yanaşan xalqımızın ümummilli lideri Heydər Əliyev deyirdi ki, keçmişini bilməyənin bu günü, sabahı və gələcəyi yoxdur!..

Bu gün böyük Zəfər simvolumuz sayılan, tarix dərsliklərinə əsl şücaətlik salnaməsi kimi düşən Şuşa döyüşü məhz mübariz ruhlu ulu babalarımızın bizə miras qoyub getdiyi silahsazlıq sənətinin müasir dövr təntənəsi idi. İgid oğullar süngü-bıçaqla əlbəyaxa döyüşə girməklə düşmənin qəddini qıraraq 14 il Əlincəqalanı milli qürurla, soyuq silahlarla qoruyan əcdadlarının layiqli davamçısı olduqlarını sübut etdilər. Bəli, biz öz şanlı keçmişimizi, tarixi ənənələrimizi, milli dəyərlərimizi daim dərindən öyrənməli və öyrətməliyik ki, bu günümüz kimi, sabahımız, gələcəyimiz də qürurla, fəxarətlə dolu olsun...

✍ **Nail ƏSGƏROV**

*Naxçıvan Müəllimlər İnstitutunun xalça emalatxanasında toxunmuş "Qars müqaviləsi" adlı süjetli və ornamental xalçaların təqdimat tədbiri keçirilib.*

## *"Qars müqaviləsi"* adlı süjetli və ornamental xalçaların təqdimatı olub






Tədbiri institutun rektoru Azad Novruzov açaraq qeyd edib ki, institutun İncəsənət kafedrasının nəzdində xalçaçılıq emalatxanası fəaliyyət göstərir ki, bu emalatxanada tələbələr xalçaçılıq sənətinin sirlərinə daha dərindən bələd olurlar. İnstitutda İncəsənət kafedrasının nəzdində xalçaçılıq dərnəyi fəaliyyət göstərir ki, dərnək xalçaçılıq sahəsinə marağı olan digər ixtisas tələbələrini də bu emalatxanadan aktiv istifadəyə yönəldir. Xalçaçılıq emalatxanasında bundan əvvəl ərsəyə gəlmiş xalçalar və "Qars müqaviləsi" adlı süjetli və ornamental xalçaların təqdimatı emalatxananın və dərnəyin səmərəli fəaliyyətindən xəbər verir.

Sonra institutun İncəsənət kafedrasının müdiri, sənətşünaslıq üzrə fəlsəfə doktoru, Əməkdar rəssam Həbibə Allahverdiyeva çıxış edərək bildirib ki, tələbələrin yaratdığı maddi mədəniyyət nümunələrinin ən qiymətlilərindən, gözoxşayan və ən çox seçilənlərindən biri xalçalarımız olub. İnstitutun xalça emalatxanasında ərsəyə gələn və təqdimatını etdiyimiz xalçalardan biri Qars müqaviləsinin 100 illik yubileyini özündə əks etdirən xalçadır ki xalça 73x83 sm ölçüdədir. Kənar hissəsində dəvə təsvirinin stilzə olunmuş forması, mərkəzi hissədə isə Qars müqaviləsini, Azərbaycan və Türkiyə dostluq və qardaşlığını özündə əks etdirən simvollar, Ağrı dağı və Haçadağ, Naxçıvanın qədimliyini özündə əks etdirən abidələri, daş qoç fiqurları təsvir olunub. Təqdimatı keçirilən digər xalça isə ornamental xalçadır. İsti və soyuq rənglərin harmoniyasını özündə əks etdirən həndəsi və nəbati ornamentlərlə bəzədilmiş bu xalça 70x106 sm ölçüdə toxunmuşdur.

***Naxçıvan Müəllimlər İnstitutunun mətbuat və ictimaiyyətlə əlaqələr xidməti***

## İxtisaslı kadr hazırlığı diqqətdə saxlanılır

Naxçıvan Dövlət Universitetində Gənclər və İdman Nazirliyinin hamiliyinə verilmiş ixtisaslar üzrə təhsil alan tələbələrlə görüş keçirilib.



Pedaqoji fakültədə keçirilən tədbirdə fakültənin dekanı Vəli Əliyev çıxış edərək universitetdə idman sahəsində ixtisaslı kadr hazırlığının səmərəli təşkilindən danışıb.

Nazirliyin şöbə müdiri Taleh İbrahimov bildirib ki, tələbələrin xizəksürmə təlimi, "Hədəf" atış təlimi və "Vətən naminə" hərbi-idman oyununda, futbol və futzal hakimliyi ilə bağlı seminar və kurslarda iştirakı təmin edilib, ixtisas hazırlığının, nümunəvi tədrisin təşkilinə dəstək olmaq məqsədilə Naxçıvan Dövlət Universitetinə yeni idman avadanlıqları təqdim olunub. Tələbələrlə mütəmadi görüşlər keçirilir, öz uğurları ilə fərqlənənlər mükafatlandırılır. Bununla yanaşı, müxtəlif idman növləri üzrə peşəkar karyera quran tələbə idmançıların beynəlxalq arenaya çıxışı təmin olunur, bu da onların təcrübə qazanmasına səbəb olur.

Sonra tədbir diskussiya şəklində davam etdirilib.

***Naxçıvan Muxtar Respublikası Gənclər və İdman Nazirliyinin mətbuat xidməti***

## Naxçıvan Muxtar Respublikası üzrə 2021-ci ilin noyabr ayında verilən təbii qazın həcmi, satışdan daxil olan vəsait və ödənilmə faizi haqqında məlumat

| S/№ | Şəhər və rayonlar | Təbii qazın həcmi (kubmetr) | Təbii qazın dəyəri (manat) | Daxil olan vəsait (manat) | Ödənilmə faizi |
|---|---|---|---|---|---|
| 1. | Naxçıvan şəhəri | 3299591 | 616614 | 616681 | 100,0 |
| 2. | Ordubad rayonu | 1104663 | 197365 | 197384 | 100,0 |
| 3. | Şahbuz rayonu | 630635 | 117098 | 117107 | 100,0 |
| 4. | Şərur rayonu | 1657102 | 320369 | 320390 | 100,0 |
| 5. | Babək rayonu | 2110826 | 391215 | 391239 | 100,0 |
| 6. | Kəngərli rayonu | 760028 | 152016 | 152022 | 100,0 |
| 7. | Culfa rayonu | 830480 | 163282 | 163283 | 100,0 |
| 8. | Sədərək rayonu | 308246 | 55762 | 55762 | 100,0 |
| 9. | Muxtar respublikanın müəssisə və təşkilatları | 12078392 | 2319987 | 2160292 | 93,1 |
| **Naxçıvan Muxtar Respublikası üzrə cəmi:** | | **22779963** | **4333708** | **4174160** | **96,3** |

### *İtmişdir*

Cəfərov Cəfər Nağı oğlunun adına olan avtomobilin AD-066253 seriya nömrəli texniki pasportu itdiyindən etibarsız sayılır.

***

Babayev Fikrət Abbasəli oğlunun adına olan 251717 nömrəli sürücülük vəsiqəsi itdiyindən etibarsız sayılır.

***

Adıgözəlov Yasin İsa oğlunun adına olan 71-BC-659 nömrəli avtomobilin texniki pasportu itdiyindən etibarsız sayılır.

***

Şərur rayonunun Mahmudkənd sakini Abbasova Xavər İbrahim qızının adına verilmiş JN-1114 inventar nömrəli torpağa mülkiyyət hüququna dair dövlət aktı itdiyindən etibarsız sayılır.

***

Məmmədov Ehtibar Əjdər oğlunun adına olan Ordubad rayonunun Aza kəndində yerləşən 2 saylı yanacaqdoldurma məntəqəsinin 107011000059-06301 reyestr nömrəli çıxarış və texniki pasportu itdiyindən etibarsız sayılır.

ŞƏRQ qapısı
Baş redaktor: MEHRİBAN SULTANOVA
Ünvan: AZ-7000, Naxçıvan şəhəri, "Təbriz" küçəsi 14.
Telefonlar: Məsul katib: 545-62-47
Şöbələr: 545-81-44, 545-51-18
Müxbirlər: 545-75-21, Faks: 544-52-52
E-mail: serqqapisi@nakhchivan.az
Qeydiyyat №: 575
Əlyazmalara cavab verilmir və onlar geri qaytarılmır
Nömrəyə məsul: Ceyhun Məmmədov
Qəzet redaksiyanın kompüter mərkəzində yığılıb, səhifələnib və Əcəmi NPB-də ofset üsulu ilə çap olunmuşdur.
Tiraj: 1500. Sifariş № 1022